# GÖYƏRÇİN

İSSN-0207-4710

2

2022



# MAHNI SOVQATI

Söz: Rafiq Yusifoğlu
Bəstə: Lalə Şirin

## PƏNCƏRƏ

Dünyamıza açılan
Nə qədər pəncərə var.
Birinin önündə dağ,
O birində dərə var.

Eləsi var meşəyə,
Ya dənizə açılır.
Eləsi var çəmənə,
Çölə, düzə açılır.

Hər biri nur bəxş edir
Ağsaqqala, uşağa.
Gündüzlər qapı olur
Çöldən gələn işığa…

Gecələr gülümsəyən
Təbəssümlü pəncərə,
Qaranlığın köksündə
Dönür iti xəncərə.

Pəncərəsiz yaşamaq
Bil ki, əfsanə sözdü.
Ürəyin pəncərəsi
Bir cüt işıqlı gözdü…



